**Məktəb idarəçilərinə görə effektiv məktəbin formalaşdırılması yolları**

**AYSEL QULİYEVA**

Təhsil üzrə Menecment, ADA Universiteti

RZA MAMMADOV

2025

# HƏQİQİLİK BƏYANATI

Mən ADA-nın plagiat siyasəti ilə tanış olmuşam və təsdiq edirəm ki, "Məktəb idarəçilərinə görə effektiv məktəbin formalaşdırılması yolları" adlı bu dissertasiyanın məzmunu mənim şəxsi işimdir. Bu işi elmi əxlaq və ənənələrə zidd olan hər hansı bir yol və yardımdan istifadə etmədən yazdığımı, istifadə etdiyim əsərlərin yalnız mənbələr bölməsində göstərilənlərdən ibarət olduğunu və bu əsərləri hər dəfə istifadə etdikdə istinad etməklə faydalandığımı bəyan edir və bunu şərəfimlə təsdiq edirəm. Bununla bildirirəm ki, ADA Universitetində magistratura səviyyəsi üzrə təqdim etdiyim bu magistrlik dissertasiyası, ilkin tədqiqat və nailiyyətim heç bir dərəcə və imtahan üçün təqdim olunmayıb.

İmza: A. F. Quliyeva

12.04.2025

## Minnətdarlıq

Bu tədqiqat prosesində biliyi, dəstəyi və təcrübəsi ilə mənə yol göstərən, böyük səbrlə bütün suallarıma cavab verən elmi rəhbərim hörmətli Rza Məmmədova tövsiyələri və şərhləri üçün minnətdarlığımı bildirirəm. Tədqiqat layihəsinin hazırlanması istiqamətində əldə etdiyim bilik və bacarıqlara görə dəyərli müəllimlərim Könül Abbaslıya, Abbas Abbasova, Cavid Cəfərov və Sarvan Rəsulluya, magistratura proqramı müddətində daima bizə peşəkarlıqla dəstək olan dekan Ülviyyə Mikayılovaya öz təşəkkürümü bildirirəm. Həmçinin, araşdırma zamanı mənə dəstəyini əsirgəməyən Quba – Xaçmaz Regional Təhsil İdarəsinə və ümumtəhsil məktəblərində çalışan idarəedicilərə dəyərli vaxtlarını ayırdıqları üçün çox minnətdaram.

Ən əsası bu layihənin həyata keçirildiyi müddətdə mənə ən çox dəstək olan, atdığım hər addımda sevgisi və dəstəyi ilə mənimlə olan valideynlərimə və mənə sonsuz motivasiya verən iki gözəl övladıma - Röya və Əliyə təşəkkür edirəm.

# Mündəricat

**HƏQİQİLİK BƏYANATI** ........ **10**

**Minnətdarlıq** ........ **11**

**Xülasə** ........ **15**

**Abstract** ........ **16**

**I FƏSİL** ........ **17**

**GİRİŞ** ........ **17**

1.1 Araşdırmanın məqsədi ........ 20

1.2 Araşdırmanın əhəmiyyəti ........ 20

1.3 Məhdudiyyətləri ........ 21

**II FƏSİL** ........ **21**

**ƏDƏBİYYAT İCMALI** ........ **21**

2.1 Effektivlik anlayışı və effektiv məktəb ........ 22

2.2 Effektiv məktəbin xüsusiyyətləri ........ 24

2.3 Təhsil idarəçilərinin effektiv məktəb mühitinin formalaşdırılmasında rolu ........ 27

2.3.1 Effektiv məktəb idarəçisi olaraq məktəb direktoru ........ 29

2.4 Yerli və beynəlxalq elmi ədəbiyyatın təhlili ........ 31

**FƏSİL III** ........ **33**

**METODOLOGİYA** ........ **33**

3.1.Tədqiqatın metodu ........ 33

3.2. Tədqiqat qrupu ........ 34

3.3. Data toplama prosesi ........................................................................................34

3.4. Dataların təhlili........................................................................................35

3.5. Pilot tətbiq etmə ........................................................................................35

**IV FƏSİL ........................................................................................37**

**TAPINTILAR ........................................................................................37**

4.1. İştirakçıların demoqrafik göstəricilərinə dair məlumatlar........................................37

4.2. Effektiv məktəblərin xüsusiyyətləri kateqoriyası........................................38

4.2.1. Sağlam psixoloji-pedaqoji mühit........................................39

4.2.2. Şagirdmərkəzlilik........................................40

4.2.3. Yüksək nizam-intizam qaydaları........................................41

4.2.4. Arzulanan münasibətlərin qurulması........................................42

4.2.5. Qarşıya qoyulmuş hədəflər........................................42

4.2.6. Maddi-texniki baza və infrastruktur ........................................43

4.2.7. Müəllim peşəkarlığı........................................44

4.2.8. Motivasiya və xoşbəxt mühit........................................44

4.3. Effektiv məktəblərdə idarəçilik kateqoriyası ........................................45

4.3.1. Komanda işi........................................46

4.3.2. Liderlik xüsusiyyətləri........................................48

4.3.3. Operativ və dataəsaslı qərarvermə........................................49

4.3.4. İnnovativ və araşdırmaçı idarəçilik ........................................51

4.4. Tədrisin təşkili kateqoriyası ........................................52

4.4.1. Öyrənməyə daima açıqlıq........................................53

4.4.2. Yüksək akademik nailiyyətlər ........ 54
4.4.3. Müasir texnologiyalar və metodların tətbiqi ........ 55
4.4.4. Pilot layihələr və dərslər ........ 56
4.5. Əlaqələrin qurulması kateqoriyası ........ 58
4.5.1. Valideynlərlə əlaqənin gücləndirilməsi ........ 59
4.5.2. Açıq və şəffaf ünsiyyət ........ 60
4.5.3. Dövlət qurumlarının təsiri ........ 61
4.5.4. İcma-məktəb münasibətləri ........ 62
**V FƏSİL ........ 63**
**NƏTİCƏLƏR və TÖVSİYƏLƏR ........ 63**
5.1. Nəticələr ........ 63
5.2. Tövsiyələr ........ 68
5.2.1. Praktiki tövsiyələr ........ 69
5.2.2. Gələcək tədqiqatçılar üçün tövsiyələr ........ 71
**ƏDƏBİYYAT ........ 72**
**ƏLAVƏLƏR ........ 80**
Əlavə 1. Etik sözləşmə formu ........ 80
Əlavə 2. Tədqiqat sualları ilə əlaqəli mütəxəssis rəyi ........ 81
Əlavə 3. Tədqiqat sualları ilə əlaqəli filoloq rəyi ........ 82

# Xülasə

Bu tədqiqat işi  Quba – Xaçmaz Regional Təhsil İdarəsinin tabeliyində olan ümumtəhsil məktəblərində çalışan məktəb idarəçilərinin fikirləri əsasında effektiv məktəb və onların effektiv məktəbin formalaşdırılması haqqında fikirlərini müəyyən etmək məqsədi ilə aparılmışdır. Tədqiqatda 12 məktəb idarəçisi iştirak etmişdir. Araşdırma keyfiyyət tədqiqat metodlarından fenomenoloji yanaşma vasitəsi ilə aparılmışdır. Dataların toplanması üçün müsahibələrdən istifadə edilmişdir. Müsahibələr tədqiqatçı tərəfindən hazırlanan yarı strukturlaşdırılmış müsahibə forması ilə aparılmış və dataların təhlilində məzmun analiz üsulu istifadə edilmişdir. Dataların məzmun təhlili nəticəsində aşağıda qeyd edilən mövzular kateqoriyalaşdırılmış və sıralanmışdır: effektiv məktəblərin xüsusiyyətləri, effektiv məktəblərdə idarəçilik, tədrisin təşkili kateqoriyası və düzgün münasibətlərin qurulması.

Araşdırmanın nəticələrinə əsasən məktəb idarəçilərinin əksəriyyətinin effektiv məktəb anlayışı barədə məlumatlı olduğu müəyyən edilmişdir. Məktəb idarəçilərinin fikirlərinə əsasən effektiv məktəblərin əsas xüsusiyyətləri arasında sağlam psixoloji - pedaqoji mühitin formalaşdırılması, tədrisin şagirdmərkəzli olması, nizam-intizam qaydalarına yüksək səviyyədə əməl edilməsi, münasibətlərin düzgün qurulması, qarşıya qoyulmuş hədəflərə çatması, maddi-texniki baza və infrastrukturun əlçatan olması, müəllim peşəkarlığı, motivasiya və xoşbəxt mühit ən çox rast gəlinən amillər olmuşdur.

Nəticə etibarı ilə bu araşdırmada effektiv məktəblərin şagirdlərə fərqli təhsil mühiti təqdim etmələrinin və əlavə fəaliyyətlər həyata keçirmələrinin əhəmiyyətindən bəhs edilmişdir. Effektiv məktəblərin maraqlı tərəflərin müxtəlif gözləntilərini və ehtiyaclarını qarşılarkən motivasiyanın vacib olduğu,  ünsiyyət və əməkdaşlıqların effektiv məktəblərin formalaşmasına müsbət təsir edi biləcəyi vurğulanmışdır.

Həmçinin, effektiv məktəbin formalaşdırlmasında infrastruktur, maddi – texniki bazanın da mühüm əhəmiyyət kəsb etdiyi vurğulanmışdır. İştirakçılar bu tədqiqatda

infrastrukturun, maddi - texniki baza ilə təchizatın şagirdlərin inkişafına, müəllimlərin fəaliyyətinə müsbət təsir göstərən bir amil kimi effektiv məktəbin əsas xüsusiyyətlərindən biri olduğunu qeyd etmişlər.

**Açar sözlər:** effektivlik, effektiv məktəb, məktəb idarəçiliyi, effektiv məktəb idarəçiləri

## Abstract

This research was conducted with the aim of identifying the opinions of school administrators working in secondary education schools under the Quba–Khachmaz Regional Education Department regarding effective schools and the formation of such schools. A total of 12 school administrators participated in the study. The research was carried out using one of the qualitative research methods — the phenomenological approach. Interviews were used to collect data. The interviews were conducted using a semi-structured interview form prepared by the researcher, and content analysis was used to analyze the data. As a result of the thematic analysis of the data, the following themes were categorized and listed: characteristics of effective schools, school management in effective schools, organization of teaching, and establishing proper relationships.

According to the results of the study, it was found that most school administrators were knowledgeable about the concept of an effective school. Based on their opinions, the main characteristics of effective schools include the formation of a healthy psychological and pedagogical environment, student-centered teaching, high adherence to discipline rules, proper relationship-building, achievement of set goals, availability of material-technical resources and infrastructure, teacher professionalism, motivation, and a happy environment.

Ultimately, this research emphasizes the importance of effective schools in providing students with a diverse educational environment and conducting additional activities. It

highlights that, in meeting the various expectations and needs of stakeholders, motivation plays a crucial role, and communication and collaboration can positively influence the development of effective schools.

It is also emphasized that infrastructure and material-technical resources are crucial in shaping an effective school. Participants noted that infrastructure and the provision of material-technical equipment are among the key characteristics of an effective school, as they positively affect student development and teacher performance.

**Keywords:** effectiveness, effective school, school managment, effective school administrators

# I FƏSİL

# GİRİŞ

Təhsil fərdin və cəmiyyətin inkişafında mühüm rol oynayır. Həm fərdin inkişafını təmin etmək, həm də bu prosesdə səmərə əldə etmək məqsədilə tədris və təhsil planlı şəkildə təşkil edilir. Bu planlı öyrənmə prosesini həyata keçirmək üçün “məktəb” adlanan qurumlar yaradılmışdır (Balcı, 1993). Məktəblər yetişən nəsillərin qlobal dünyaya uyğunlaşa bilməsində və ümumbəşəri dəyərlərin gələcək nəsillərə ötürülməsində mühüm rol oynayır (Toprak, 2011).

Cəmiyyətin təhsil anlayışı ilə əlaqələndirdiyi qurum məhz məktəbdir (Açıkalın, 2016). Məktəb ölkənin inkişafı və tərəqqisi ilə birbaşa əlaqəlidir (Hashimova, 2022). Müasir dövrdə cəmiyyətin tələbinə uyğun olaraq məktəblərdə dəyişiklərin aparılması bir zərurətə çevrilib (Turgut, 2021). Məktəblərin belə bir həssas mövqedə öz vəzifəsinin öhdəsindən layiqincə gələ bilməsi böyük əhəmiyyət kəsb edir (Karacaoğlu, 2008). Hər bir təşkilat kimi məktəblər insanlardan ibarət açıq bir sistemdir və əsas öhdəliklərindən biri də insanları məqsədlərinə çatdırmaqdır (Başaran, 1982). Məktəblər zamanın tələbinə cavab verə bilmək üçün ətraf mühitdən gələn müsbət ideya və fikirləri qəbul etməyi və mənfi təsirlərin qarşısını almağı bacarmalıdırlar (Balcı, 1993). Baş verən dəyişikliklər effektiv məktəblərin formalaşdırılmasının aktuallığı olaraq qəbul edilə bilər (Duranay Yıldırım, 2005).

Effektiv məktəblərin özünəməxsus xüsusiyyətləri mövcuddur. Bunlara ilk növbədə şagirdlərin akademik nəticələrinin yüksək olması, məktəb direktorlarının liderlik xüsusiyyətləri, sinfin idarəolunması, müəllimlərin davranışı, effektiv məktəb-icma münasibətləri və digərləri daxildir (Başaran, 2004). Gökçe və Kahramana (2010) görə, təhsil sahəsində arzuolunan nəticələri əldə edə bilməyən ölkələrdə, xüsusilə də ABŞ-da qarşıya qoyulmuş məqsədlərə nail olmaq üçün ilk dəfə "effektiv məktəb" anlayışından istifadə edilib. Təhsil sisteminin səmərəliliyini və keyfiyyətliliyini ən yaxşı ifadə edən terminlərdən biri effektivlikdir (Oral, 2005).

Effektivlik bir təşkilatın mövcud olması və inkişaf etməsi üçün zəruri hesab edilən xüsusiyyətlərdən biridir (Şahin, 2020). Effektivlik terminini Barnard (1938) "*məqsədlərə çatma dərəcəsi*" kimi izah etmişdir (Balcı,1993). Effektivlik dedikdə məqsədlərə çatmanın arzulanan səviyyədə olması başa düşülür (Başaran, 1982). Bu təriflərdən göründüyü kimi, effektivlik məqsədlər və onların reallaşdırılma dərəcəsi ilə sıx bağlıdır. Bir təşkilat məqsədlərinə nə qədər çox nail olursa, bir o qədər də effektivdir. Yəni, effektivlik, bir qiymətləndirmə işidir (Helvacı və Aydoğan, 2011).

Məktəb effektivliyini anlayış olaraq formalaşdırmaq çətindir. Çünki məktəbin çoxşaxəli və mürəkkəb bir quruluşu və məqsədləri vardır. Effektiv məktəb çox ölçülü bir anlayış olmaqla yanaşı, tədqiqatçıların razılaşdığı bəzi ortaq xüsusiyyətlərə malikdir (Güngören, 2021). Məktəb və şagirdin effektivliyinin meyarı isə əsasən şagirdlərin əldə etdiyi bilik, bacarıq və davranış inkişafı ilə ölçülür (Purkey & Smith, 1983).

Məktəblər gələcək nəsillərin qlobal dünyaya uyğunlaşabilməsi üçün həm cəmiyyəti bir sonrakı nəslə çatdırmaq, həm də ümumbəşəri dəyərləri mənimsətmək baxımından çox böyük əhəmiyyət kəsb edir. Bu, məktəblərin həm milli, həm də beynəlxalq səviyyədə vəzifələrini yerinə yetirərək gələcək nəsillərin tərbiyəsində mühüm rol oynadığını göstərir (Toprak, 2011). Məktəb müəllimlər, direktorlar və şagirdlərin yüksək performansa nail olmaq üçün nümayiş etdirdikləri münasibətlərlə müvəffəqiyyət tarixçəsini davamlı olaraq yaxşılaşdırdığı zaman effektiv hesab olunur, lakin qeyri-effektiv məktəblərdə vəziyyət əksinədir (Lezotte, 1991). Məktəbin müxtəlif və mürəkkəb faktorlar daxilində olması, məktəbdən gözləntilərin fərqli olması və ətraf mühit faktorları məktəb effektivliyini müəyyənləşdirməyi çətinləşdirir (Kazak, 2021; Arslantaş & Özkan, 2014).

Effektiv məktəblər 21-ci əsrin təhsil sisteminin zərurətinə çevrildiyinə görə bu sahədə tədqiqatlar populyarlaşıb. 1960-cı illərdən bəri dünyanın müxtəlif ölkələrində effektivlik və effektiv məktəblər mövzusu tədqiqat obyekti olaraq araşdırılmağa başlanılıb. İnkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə bu mövzuda həm kəmiyyət, həm də keyfiyyət metodları vasitəsi ilə bir çox araşdırmalar aparılsa da, Azərbaycanda bu mövzuda tədqiqat işinə demək olar ki, çox az şəkildə rast gəlinir. Effektivliklə bağlı aparılan araşdırmalar nəticəsində effektiv məktəblərin müasir dövrdə şagirdlərin akademik nailiyyətlərinin artırılmasında (Turgut, 2021) və effektiv məktəb mədəniyyətinin formalaşdırılmasında (Şişman, 2002) böyük rol oynadığı düşünülür.

## 1.1 Araşdırmanın məqsədi

Bu araşdırmanın məqsədi 2024-2025-ci tədris ilində region nümunəsində ümumtəhsil məktəblərinin idarəçilərinin düşüncələrində effektiv məktəb anlayışını müəyyən etmək, effektiv məktəbin formalaşdırılması yollarını öyrənməkdir. Bu çərçivədə, tədqiqatda aşağıdakı suallara cavab axtarılıb:

1. Məktəb idarəçilərinə görə effektiv məktəb anlayışı nədir?

2. Effektiv məktəbin formalaşdırılması haqqında məktəb idarəçilərinin düşüncələri nələrdir?

## 1.2 Araşdırmanın əhəmiyyəti

Təhsil sahəsində bir çox yeni anlayış və yanaşmaların meydana gəldiyi müşahidə olunur. Bu yanaşmalar məktəbləri yeni dəyişikliklərə və yenidən qurulmağa yönləndirir (Turgut, 2021). Buna görə də “effektiv məktəb” anlayışına yeni mənalar yüklənir və bu mövzuda yeni araşdırmalara olan ehtiyac sürətlə və davamlı olaraq artır (Pənahov, 2024). Məktəblərin effektivliyi cəmiyyətin inkişafı və tərəqqisində mühüm rol oynayır. Bu baxımdan bu sahədə aparılacaq araşdırmaların, mövcud problemlərin düzgün müəyyən edilməsi və onların həlli üçün təkliflərin verilməsinin böyük əhəmiyyəti vardır. Bu tədqiqatın nəticələri idarəçilərə effektiv məktəblərin formalaşdırılması və fəaliyyət göstərdikləri müəssisədə olan problemlərin aşkarlanması, aradan qaldırılması, tədris prosesinin keyfiyyətinin yüksəldilməsi, inkişafı və planlaşdırılması istiqamətində kömək ola bilər. Bu araşdırma effektivlik və effektiv məktəblər mövzusunda gələcək tədqiqatlar üçün mənbə ola bilər. Azərbaycanda effektivlik və ya effektiv məktəblə bağlı tədqiqat işlərinin məhdud sayda olması araşdırmanın əhəmiyyətini artırır.

### 1.3 Məhdudiyyətləri

Hər bir tədqiqatın elmi yeniliyi və mövzunun öyrənilməsi baxımından məhdudiyyəti vardır. Bu tədqiqatın da vaxt və məkan çərçivəsində məhdudiyyəti vardır. Belə ki, tədqiqat 2024-2025-ci tədris ilində Quba - Xaçmaz regionunda fəaliyyət göstərən məktəb idarəçilərin fikirləri ilə məhduddur. Eyni zamanda, seçmənin yalnız məktəb idarəçilərini əhatə etməsi və kiçik olması, nəticələrin yalnız spesifik konteksti təsvir etməsi də tədqiqatın məhdudiyyətlərinə daxildir.

# II FƏSİL

# ƏDƏBİYYAT İCMALI

Bu fəsildə tədqiqatla əlaqəli olaraq nəzəri və konseptual çərçivə təqdim edilməkdədir. Effektivlik anlayışı, effektiv məktəb, yerli və beynəlxalq ədəbiyyatlarda effektiv məktəb anlayışı və effektin məktəbin formalaşdırılmasına təsir edən faktorlar haqqında ümumi məlumat verilməkdədir.

## 2.1 Effektivlik anlayışı və effektiv məktəb

Effektiv məktəb anlayışını müəyyən etmək üçün effektivlik terminini başa düşmək lazımdır. Effektivlik anlayışı idarəetmə nəzəriyyələrində təşkilatın məqsədlərinə nə dərəcədə nail ola bildiyini ölçən əsas göstəricilərdən biridir. Effektivliyin təriflərinə nəzər saldıqda ən çox vurğulanan xüsusiyyət onun müəyyən edilmiş məqsədə çatma dərəcəsidir (Barnard, 1938). Effektivlik anlayışı "g*özlənilən bir təsiri meydana gətirmə bacarığı, çox spesifik və səmərəli nəticələr*" kimi mənaları ifadə edir (Şişman, 2002). Bu anlayışın təhsil və məktəb idarəetməsinə tətbiqi isə məktəbin məqsədlərinə uyğun şəkildə şagirdlərə bilik, bacarıq qazandırması və ümumi inkişafı təmin etməsi ilə əlaqədardır (Kaya, 2015). Eləcə də, effektivlik məktəb kontekstinə aid edildikdə təhsil sahəsində dəyişiklik, transformasiya, diferensiallaşma və inkişafa işarə edildiyini söyləmək olar (Toprak, 2011). Coleman (1968) tədqiqatında məktəblərin əksər şagirdlər üçün böyük bir fərq yaratmadığını, ancaq azlıq və əlverişsiz qruplar üçün cüzi bir fərq yaradacağı qeyd edilsə də 1970-ci illərdən başlayaraq aparılan məktəb effektivliyi araşdırmaları göstərir ki, məktəbin həm şagird, həm də təşkilat üzərində çox böyük təsiri vardır (Toprak, 2011). Cheng və Vonqa (1996) görə effektiv məktəblərin formalaşması üçün ətraf mühitin töhfəsinin, müəllim peşəkarlığının, yüksək nailiyyət hədəflərinin olmasının əsas rol oynayır.

Müəyyən edilmiş məqsədə çatan məktəb effektiv məktəb hesab edilir (Oral, 2005). Effektiv məktəb anlayışı müasir dövrdə təhsil müəssisələrinə fərqli yanaşmalardan biridir (Teddlie & Reynolds, 2000). Effektiv məktəb o deməkdir ki, bütün şagirdlər onlara təklif edilən imkanlardan yüksək dərəcədə bəhrələnir, yəni qarşıya qoyulan hədəfə çatmaq mümkün olur (Lezotte, 1991). Məktəbin effektivliyi yalnız şagirdlərin fənlər üzrə əldə etdiyi nəticələrlə ölçülmür, digər dəyişkənlərdən də asılıdır. Məktəbin icmaya cavabdehliliyi, məktəb mühiti və müəllimlərin fəaliyyətləri də nəzərə alınmalıdır (Yirci & Berk, 2021).

Effektivlik anlayışı təşkilatın öz xüsusi məqsədlərinə çatmasını ifadə edir (Beare və dig., 1989). Məktəb effektivliyi effektiv bir məktəbin müəyyən bir xüsusiyyəti kimi də qəbul

edilə bilər. Bennet və digərlərinə (2003) görə, şagirdlərin gözləniləndən daha çox irəlilədiyi bir məktəb effektivdir. Məktəb effektivliyinin müxtəlif tərifləri mövcuddur; bəziləri şagirdlərin akademik nailiyyətlərinə (Javornik & Klemencic Mirazchiyski, 2023), bəziləri isə məktəbin cəmiyyətlə əlaqəsinə, idarəetməyə, şagirdlərin sosial-iqtisadi vəziyyətinə və digər faktorlar üzərində fokuslanır (Güngören, 2021). Bu təriflər məktəbin effektivliyinin yalnız akademik nəticələrlə deyil, həm də cəmiyyətlə olan əlaqələri və daxilindəki fəaliyyətlərlə bağlı olan çoxşaxəli və kompleks bir anlayış olduğunu göstərir (Kaya, 2015).

Məktəbin effektivliyinin dəyərləndirilməsi zamanı məsələyə həm məktəbin daxili, həm də xarici mühiti nəzərə alaraq iki əsas aspektdən yanaşmaq zəruridir. Daxili mühitə məktəbin təşkilati strukturu, tədris proqramları, sinifdaxili və məktəb daxili proseslərdir. Xarici mühit isə məktəbin sosial, mədəni və iqtisadi əlaqələri, o cümlədən cəmiyyətlə olan inteqrasiyası və məktəbin cəmiyyət üzərindəki təsiri ilə bağlıdır (Şişman, 2002). Məktəbin effektivliyi bu müxtəlif aspektlər arasında qarşılıqlı əlaqələri və təsirləri nəzərə alaraq qiymətləndirilməli, hər bir faktorun məktəbin ümumi fəaliyyətinə və nəticələrinə necə təsir göstərdiyi araşdırılmalıdır (Balcı, 2013).

Sosial dəyişikliklərin gətirdiyi dəyişikliklərlə başa çıxmaq və bu dəyişiklikləri düzgün istiqamətləndirmək, məktəblərin effektiv olmasını təmin edən əsas amillərdən biridir. Eyni zamanda, məktəblər yalnız təhsil verməklə kifayətlənməyib cəmiyyətin sosial və mədəni dəyərlərini qorumaq və dəyişikliklərə uyğunlaşmaq kimi əhəmiyyətli vəzifələri yerinə yetirməlidir (Balcı, 1993).

Cheng & Vonq (1996) Asiyada bir neçə məktəbdə araşdırma apararaq effektiv məktəblərin formalaşması üçün ətraf mühitin töhfəsinin, müəllim peşəkarlığının, yüksək nailiyyət hədəflərinin olmasının əsas olduğunu vurğulayırlar. Məktəb direktoru və müavinləri, müəllimlər, şagirdlər, valideynlər, məktəb mühiti və mədəniyyəti, kurrikulum və öyrənmə proqramları, ətraf mühit, məktəbin infrastrukturu effektiv məktəblərin formalasdırılmasında